Salam!

Adım Həmidədir. Bildiyin kimi, sənə qarşı tərəfdən, doğulandan bəri düşmən ölkəsi bildiyin bir yerdən yazıram. Amma bu məktubu yazıramsa və sən bunu oxuyursansa, deməli, bu mövcud vəziyyəti dəyişməyə addım atanlardanıq.

Hər ermənin pis biri olmadığı, bu müharibədən, köçürmələrdən təkcə bizim əziyyət çəkmədiyimiz əvvəllər də ağlıma gəlib. Birinci dəfə bu, Qaraqanın (Azərbaycan yazıçısı) “A romanı” nı oxuyarkən baş verdi.

Orada bir azərbaycanlı bütün varlığı ilə Ermənistana, ermənilərə nifrət edir, onların körpəsindən tutmuş yaşlısına kimi hər birinin qəddar, pis, qaniçən olduğuna inanırdı. Ta ki, bir gün özünün əslində erməni olduğunu, lakin müharibə zamanı qarışaraq buraya düşüb və burada böyüdüyünü bilənə kimi. Buradan görünür ki, bu nifrət, bu kin bizə aşılanan bir şeydir. Kim istərdi ki, öz evini, həyatini, bağını qoyub birdəfəlik getsin? Biz adicə burada – Bakıda tələbəyik . Hər tətil fürsətində rayonumuza getməyimizə baxmayaraq, yenə də ora üçün darıxırıq. İndi düşünək ki, kimlərsə öz xatirələrinin məkanını geridə buraxıb gedir. Bu, hər iki tərəfin vətəndaşlarının həyatında baş verən amansız hadisədir.

İkinci dəfə isə bu haqda özüm düşünmüşəm ki, necə oldu birdən–birə dünənə kimi qonşu olan, çörək kəsən, bir–biriləri ilə evlənən insanlar səhəri gün uşaqlara, qadınlara, qocalara rəhm etmədən onları işgəncə ilə öldürüb. Təbii ki, bunları ilk əvvəl dinc əhali edib deyə düşünmürəm. Yəqin ki, bunun üçün xüsusi, rəhmsiz insanları seçiblər. Və bundan sonra hər iki tərəf özünü müdafiə məqsədi ilə müəyyən xoşagəlməz hadisələr törədib.

Düzdür, aramızda olan bu münaqişə son 30 ildə baş verənlərdən daha əvvələ gedib çıxır. Amma məncə, burada təkcə sizin günahınız yoxdur. Bizim indi bir gənc olaraq məqsədimiz, bu heç kimə xeyri olmayan nifrəti məhv etmək, övladlarımıza Erməni/Azərbaycanlı düşmənindir demədən böyütməkdir.

XOŞ ARZULARLA !